# İRƏLİLƏYİŞ RAZILIQ DOĞURUR

Son illərədək Ağsu Rayon Mədəniyyət Şöbəsinin adı bir qayda olaraq həmişə danlanan, irad tutulan kollektivlər sırasında çəkilirdi. Və...

Və birdən-birə sanki möcüzə baş verdi. Şöbənin işində dönüş yarandı. Maraqlı burasıdır ki, bu irəliləyiş kadr dəyişikliyi aparılmadan oldu. Fərəhlidir ki, bu iş tərzi artıq bir ənənəyə çevrilir. Şöbə müdiri Kəmalə xanım Xanməmmədova ilə söhbət zamanı bir daha buna əmin olduq.

-Son vaxtlar rayonumuzda mədəniyyətin inkişafına, əhalinin mədəni səviyyəsinin yüksəldilməsinə və asudə vaxtın səmərəli təşkilinə diqqət xeyli artırılmışdır. Hazırda rayon əhalisinə 10 Mədəniyyət evi (işçilərinin sayı 39 nəfər), 19 kənd klubu (işçilərinin sayı 38 nəfər), 47 kitabxana (işçilərinin sayı 70 nəfər), 1 yeddiillik uşaq musiqi məktəbi (işçilərinin sayı 79 nəfər), 1 tarix-diyarşünaslıq muzeyi və 4 abidə mühafizəçisi (işçilərinin sayı 13 nəfər) xidmət edir. Rayon icra hakimiyyəti başçısı Əflatun Rufuyevin mədəniyyətə qayğısı nəticəsində mədəniyyət sarayı, tarix-diyarşünaslıq muzeyi, yediillik uşaq musiqi məktəbi əsaslı surətdə təmir olunmuş və zəruri avadanlıqlarla təchiz edilmişdir. Rayon mədəniyyət şöbəsi, MKS, rayon mədəniyyət evi və bir sıra mədəni-maarif müəssisələrində aparılan təmir işləri haqqında da eyni sözləri söyləmək olar. Bütün bunlar bizi daha yaxşı işləməyə, öz işimizi günün tələbləri səviyyəsində qurmağa sövq edir. Belə ki, illik iş planları və tədbirlər planı əsasında hər bir işçiyə konkret tapşırıqlar verilmiş, işin icrasına nəzarət gücləndirilmişdir. Bundan başqa mədəniyyət şöbəsinin fəaliyyəti vaxtaşırı olaraq rayon icra hakimiyyəti başçısı yanında şurada müzakirə edilmiş, işimizdə olan nöqsanlar qeyd olunmuş və bu nöqsanların aradan qaldırılması üçün konkret yollar göstərilmişdir. Şura iclasında qəbul edilmiş qərarların icrası daimi nəzarətdə saxlanılmış, müvafiq tədbirlər görülmüşdür. İşinin öhdəsindən gələ bilməyən, əmək intizamına əməl etməyən bir neçə mədəni-maarif işçisinə müxtəlif cəzalar verilmişdir.

Bu gün mədəniyyət işçilərinin ən vacib və başlıca fəaliyyəti hərbi-vətənpərvərlik tərbiyəsi ilə bağlıdır. Çağırışçı gənclər qarşısında mədəniyyət və incəsənət ustalarının çıxışları, mədəni-maarif müəssisələrində, o cümlədən kitabxanalarda milli qəhrəmanlarımız, şəhidlərimiz, görkəmli sərkərdələrimiz haqqında təşkil olunmuş tədbirlər, guşələr, sərgilər, fotostendlər, bu mövzuda çap olunmuş yeni kitab və nəşrlərin təbliği bu qəbildəndir. 2005-ci ildə bu məqsədlə alınan kitabların yazılışı-








nın kəmiyyəti xeyli artmışdır. Bütün bunlar təbliğat işində böyük rol oynayır.

Keçirilən hər bir mədəni-kütləvi tədbirin maraqlı olması üçün əvvəlcədən tədbirlər planı tutulmuşdur.

20 Yanvar, Xocalı faciəsi, Gənclər günü, Novruz və Qurban bayramları, Faşizm üzərində qələbənin 60 illiyi, Respublika günü, Milli Qurtuluş günü, Silahlı Qüvvələr günü, Müstəqillik günü, Konstitusiya günü, 31 Dekabr-Dünya Azərbaycanlıların Həmrəylik günü və Yeni il münasibəti ilə əlaqədar ədəbi-bədii gecələr, kompozisiyalar, kitab sərgiləri, məruzə və mühazirələr təşkil olunmuşdur.

Etiraf etməliyik ki, işimizdə nöqsanlar da var. Gələcək fəaliyyətimizi ilk növbədə bu çatışmazlıqların ləğvi istiqamətinə yönəldəcəyik.

*Tural*